*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 23 (711)
16 dekabr 2025-ci il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# ULU ÖNDƏR - MÜASİR VƏ MÜSTƏQİL AZƏRBAYCANIN MEMARI



Azərbaycanın dövlətçilik tarixində dərin iz qoymuş Ümummilli Lider Heydər Əliyevin vəfatından 22 il ötür. Bu illər ərzində ölkəmiz onun siyasi irsinin işığında əzmlə irəliləyərək qısa müddətdə əsrə bərabər yol qət edib.

Bu dövr Azərbaycan üçün həm də tarixi ədalətin bərpası ilə yadda qalıb. Çoxəsrlik tariximizdə misli görünməmiş Vətən müharibəsi və ardınca həyata keçirilən antiterror tədbirləri nəticəsində respublikamızın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub. Bununla yanaşı, ölkəmiz beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və aparıcı iştirakçısı kimi regional və qlobal miqyasda siyasi-iqtisadi mövqelərini daha da möhkəmləndirib.

Bu nailiyyətlərin əsasını Ulu Öndərin əbədi ideyaları, Prezident İlham Əliyevin qətiyyətli qərarları, dəyişən qlobal reallıqlara uyğun siyasəti və çevik diplomatik fəaliyyəti təşkil edir. Bu gün Azərbaycanın səsi bütün beynəlxalq platformalarda daha güclü eşidilir, üçrəngli bayrağımız ən yüksək zirvələrdə dalğalanır.

### Milli dirçəlişin banisi

Azərbaycanın müasir tarixində qazanılan böyük uğurlar Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Onun 1969-cu ildən başlayan və 30 ildən artıq davam edən rəhbərliyi dövründə ölkəmiz milli dirçəliş və intibah dövrünü yaşayıb.

Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanın həyatında əsaslı dəyişikliklər yaratdı. Respublika canlanma mərhələsinə qədəm qoydu, genişmiqyaslı quruculuq işləri və inkişaf prosesi başladı. Bakıda o dövrün nadir sənaye müəssisələri - məişət kondisionerləri və dərin dəniz özülləri zavodları istifadəyə verildi. Memarlıq inciləri olan "Gülüstan" sarayı və Heydər Əliyev Sarayı inşa edildi, Yeni Əhmədli və Günəşli kimi iri yaşayış massivləri salındı. Kənd təsərrüfatında əhəmiyyətli nailiyyətlər əldə olundu ki, bu da əhalinin həyat səviyyəsini xeyli yaxşılaşdırdı.

Ulu Öndər Heydər Əliyev hələ sağlığında əfsanələşmişdi və nadir dövlət xadimlərindən sayılırdı. Dünyanın tanınmış simaları onu siyasətdə patriarx, tarixin gedişinə təsir edə bilən güclü şəxsiyyət hesab edirdilər.

Əminliklə demək olar ki, 1970-1980-ci illər Azərbaycan tarixində xalqımızın milli ideyalarının - azad, müstəqil və suveren dövlət qurmaq arzularının formalaşmasına möhkəm bünövrə yaratdı.

### Xalqının qüdrətli müdafiəçisi

Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixinin ən görkəmli şəxsiyyətlərindən biridir və xalqımız onunla haqlı olaraq fəxr edir. Həyatı xalqı ilə dərindən bağlı olan Ümummilli Lider dövlətçilik tariximizdə unudulmaz rəhbər, qüdrətli Lider və fədakar insan kimi iz qoyub. Şübhəsiz ki, o, Azərbaycanı qəlbən sevən və ömrünü Vətəninin tərəqqisinə həsr edən dahi bir şəxsiyyət idi.

Ümummilli Lider Heydər Əliyev keçmiş SSRİ-nin ən ali rəhbər orqanlarından biri olan Siyasi Büronun üzvü, həmçinin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə qədər yüksəlmişdi. Ulu Öndərin belə mötəbər siyasi zirvəyə yüksəlməsi Azərbaycanın inkişafı üçün böyük imkanlar açdı. O, nüfuzundan və tutduğu vəzifələrin imtiyazlarından istifadə edərək Azərbaycana mühüm ittifaq layihələrini yönəltdi.

O dövrdə Heydər Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli addımları və fitri təşkilatçılıq istedadı onun nüfuzunu daha da artırdı. Lakin buna rəğmən ona qarşı paxıllıq və qısqanclıq da güclənirdi. Xüsusilə mənsəbpərəst Mixail Qorbaçov onu siyasi meydandan uzaqlaşdırmağa çalışır, əleyhinə çirkin kampaniyalar aparırdı.

Ümummilli Lider Heydər Əliyev ölkə rəhbərliyi ilə ciddi fikir ayrılığı səbəbindən vəzifəsindən istefa verdikdən sonra erməni şovinistləri Azərbaycana qarşı ərazi iddiaları irəli sürdülər və Qarabağda separatizm baş qaldırdı. 1990-cı il yanvarın 20-də sovet ordusu Bakıda qanlı qırğın törətdi. O dövrdə də, bu gün də çoxları əmindir ki, əgər Heydər Əliyev həmin vaxt rəhbərlikdə olsaydı, nə Qarabağ problemi, nə Qara Yanvar faciəsi, nə də digər hadisələr baş verərdi.

### Xaosdan sabitliyə: Müasir Azərbaycanın qurucusu

1990-cı illərin əvvəlləri Azərbaycan üçün çox mürəkkəb bir dövr idi. Bu vəziyyətə biganə qala bilməyən Ulu Öndər Heydər Əliyev Moskvadan Vətənə qayıtmaq qərarı verdi. Lakin o dövrdəki iqtidar Heydər Əliyevin Bakıya gəlməsinə mane olduğundan Ulu Öndər doğma Naxçıvana üz tutdu. Ümummilli Lider Naxçıvanı erməni təcavüzündən və siyasi təlatümlərdən qorumağı bacardı. Üçrəngli bayrağımızı ilk dəfə Naxçıvanda ucaldan Ulu Öndər burada Yeni Azərbaycan Partiyasının əsasını qoydu. Ümummilli Liderin muxtar respublikanın rəhbəri olaraq qəbul etdiyi strateji və qətiyyətli qərarlar Azərbaycanın gələcək taleyinə mühüm təsir göstərdi.

Müstəqilliyin ilk illərində ölkə xaos, anarxiya və vətəndaş müharibəsi təhlükəsi ilə üzləşmişdi. 1993-cü ilin yayında vəziyyət böhran həddinə çatdı. Xalqın çağırışı ilə Ulu Öndər iyunun 9-da Naxçıvandan Bakıya gəldi və ölkəni xilas etmək üçün məsuliyyəti öz üzərinə götürdü.

Ulu Öndər Heydər Əliyev qısa zamanda ölkədə sabitliyi bərpa etdi və müasir milli dövlət quruculuğu prosesini başlatdı. Onun rəhbərliyi ilə milli maraqlar ön plana çıxarıldı, xarici siyasət prinsipləri müəyyənləşdirildi və ictimai-siyasi sabitlik təmin edildi. Bu isə ölkədə genişmiqyaslı infrastruktur və quruculuq işlərinə şərait yaratdı.

Ordu quruculuğu sahəsində də mühüm addımlar atıldı. Ulu Öndər cəbhə bölgələrinə səfərlər edir, əsgərlərlə görüşərək onların mənəvi ruhunu yüksəldirdi. Bunun nəticəsində düşmənin ölkəmizə qarşı yeni işğal planları dəf edildi və təhlükələrin qarşısı alındı.

Eyni zamanda, Azərbaycanın enerji və nəqliyyat infrastrukturunda böyük layihələr reallaşdırıldı. Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildi, ardınca Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu və Cənub Qaz Dəhlizi inşa edildi. Bu transmilli layihələr ölkəmizi beynəlxalq arenada mühüm aktora çevirdi.

### Uğurlu inkişafdan möhtəşəm Zəfərə

Ümummilli Lider Heydər Əliyev artıq aramızda olmasa da, onun parlaq ideyaları bu gün də Azərbaycanın inkişaf yolunu işıqlandırır. Prezident İlham Əliyev Ulu Öndərin strategiyasını qətiyyətlə davam etdirərək ölkəmizi yeni zirvələrə aparır, qlobal siyasətin mürəkkəb məqamlarını nəzərə alaraq milli maraqları qoruyur.

Xalq öz Liderinə inanır və onu dəstəkləyir. Bu həmrəyliyin və inamın ən parlaq təcəssümü 44 günlük Vətən müharibəsində və uğurlu antiterror tədbirləri nəticəsində qazanılan möhtəşəm Zəfərdir. Prezident İlham Əliyev quruculuq işlərində də böyük qətiyyət və əzmkarlıq nümayiş etdirir. İşğaldan azad olunmuş ərazilərdə infrastruktur bərpa olunur, yaşayış kompleksləri tikilir, yenilərinin təməli qoyulur. Bu proseslər Böyük Qayıdışın uğurlu perspektivindən xəbər verir. İndiyədək yüzlərlə ailə doğma yurda qovuşub və "Böyük Qayıdış" Proqramı uğurla həyata keçirilir.

Heç şübhəsiz, bütün bu uğurların əsasını Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik strategiyası və milli dövlətçilik prinsipləri təşkil edir. Bu nailiyyətlər göstərir ki, Azərbaycanın gələcəyi daha güclü, firavan və sabit bir dövlət olaraq qorunacaq, xalqımız isə hər zaman öz Liderinə güvənərək inkişaf yolunda addımlamağa davam edəcək.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb**

# NAZİR VİLAYƏT EYVAZOV GƏNCƏ ŞƏHƏRİNDƏ NÖVBƏTİ VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 30-da və dekabrın 1-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.



Nazir əvvəlcə Gəncə şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Goranboy, Daşkəsən, Naftalan, Göygöl, Samux, Kəlbəcər, Xocalı şəhər və rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 384 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.



Sonda general-polkovnik Vilayət Eyvazov polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 42 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 362 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**



2 ƏSGƏR 16 dekabr 2025-ci il

# ŞƏXSİ HEYƏTİN BİLİK VƏ BACARIQLARININ ARTIRILMASINA DİQQƏT YETİRİLİR

12318 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə vəzifələrinin icrasına məsuliyyətlə yanaşır, regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyətin cəlb olunduğu xüsusi əməliyyatlarda qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.



Dəstə komandiri polkovnik-leytenant Elnur Səmədov bildirdi ki, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq üzrə məşğələlər keçirilir. Bu zaman onların bilik və



bacarıqlarının artırılmasına, məşğələ mövzularının dərindən mənimsənilməsinə diqqət yetirilir.

O, keçirilən təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin döyüş hazırlığının hər zaman yüksək səviyyədə qorunub saxlanılmasına xidmət etdiyini dedi: "Dəstənin öz vəzifələrini keyfiyyətlə yerinə yetirə bilməsi üçün hərbi hissədə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Bu, dəstənin döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlamaq, qarşıya qoyulan tapşırıqları məsuliyyətlə və vaxtında icra etməkdir".

Polkovnik-leytenant E.Səmədov onu da qeyd etdi ki, keçirilən təlimlər zamanı bölmə komandirləri tərəfindən şəxsi heyətin bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır: "Tapşırıqların müvəffəqiyyətlə icra olunması şəxsi heyətin bilik və bacarıqlarından çox asılıdır. Əldə olunan müsbət nəticələr təbii ki, yüksək nailiyyətlərin qazanılmasına zəmin yaradır. Hər bir hərbi qulluqçu öz vəzifə borcunu şüurlu surətdə dərk edir, gündəlik olaraq verilən tapşırıqları məsuliyyətlə yerinə yetirməyə çalışır".

Dəstədə keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan komandir şəxsi heyətlə yüksək nizam-intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını söylədi. O, bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Ruslan Ağayevin əməyini xüsusilə qeyd etdi.

Polkovnik-leytenant E.Səmədov nümunəvi xidmətilə seçilən hərbi qulluqçulardan baş leytenantlar Məhəmməd Sadıxov, Ayxan Əlizadə, çavuşlar Rəcəbəli Qasımov, Tofiq Xəlilov və kiçik çavuş Elcan İsmayılovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# FASİLƏSİZ VƏ DAYANIQLI RABİTƏNİN TƏŞKİLİ MÜHÜM VƏZİFƏDİR







Müasir rabitə qurğuları ilə təchiz edilən Daxili Qoşunların Dayaq rabitə qovşağı daim peşə hazırlığını təkmilləşdirir. Dayaq rabitə qovşağının rəisi mayor Elşad Mövsümovdan öyrəndik ki, şəxsi heyətlə gündəlik olaraq təşkil olunan məşğələlərin keçirilməsində əsas məqsəd rabitəçilərin bilik və bacarıqlarının artırılması, peşə vərdişlərinin mənimsənilməsidir. Hər gün ixtisas üzrə yeni mövzular ətrafında hazırlıqlarını artıran rabitəçilərimiz müasir qurğulardan istifadə üsullarını praktiki öyrənirlər.

Davamlı rabitə döyüş hazırlığında vacib şərtdir. Peşəkar rabitəçi ərazinin relyefini hərtərəfli öyrənməlidir. Dağlıq, təpəlik, sıldırım qayalıqlarda rabitə sisteminin uyğun qaydalar üzrə yerləşdirilməsi onun etibarlılığını daha da gücləndirir.

Rabitənin yerləşdirilməsi, bir qayda olaraq, əraziyə görə seçilir. Soyuq, qarlı-yağışlı, dumanlı havada əgər ərazini tanımırsansa, kəsilmiş rabitə xəttinin bərpası çətinləşir. Bu səbəbdən də müasir rabitə vasitələrinin sirlərini mükəmməl öyrənmək vacibdir. Bu gün qazandığımız qələbədə rabitəçilərin də payının olması bütün şəxsi heyəti ürəkdən sevindirir.

Müasir dünyamızı təbii ki, rabitəsiz təsəvvür etmək mümkün deyil. Rabitə və yüksək texnologiyalar sahəsində ildən-ilə baş verən yenilikləri hər bir kəs müşahidə edir. Bu yeniliklər sözsüz ki, Daxili Qoşunların rabitə sistemindən də yan keçməyib. Məhz bu barədə ətraflı məlumat verən mayor E.Mövsümov bildirdi ki, qarşılarına qoyulmuş müvafiq tapşırığa əsasən, cari ilin 2-ci yarısından başlayaraq Daxili İşlər Nazirliyinin əsas şəbəkə infrastrukturu ilə Daxili Qoşunların Baş İdarəsi və hərbi hissələri arasında olan kommunikasiya topologiyalarının arxitekturası, istifadə olunan avadanlıqların texniki göstəriciləri, informasiya texnologiyalarının tətbiqi, eləcə də informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik risklərinin analizi, qarşısının alınması, kritik halların aşkarlanması və "ağıllı" sistemlərin tətbiqi vəziyyətinin təhlili ilə əlaqədar şəxsi heyət tərəfindən rabitə sistemi yenilənib. Daxili Qoşunların Baş İdarəsi və hərbi hissələr üzrə şəbəkə infrastrukturunda kibertəhlükəsizlik, DİN sisteminə inteqrasiya məqsədilə istifadə olunan şəbəkə, server və digər avadanlıqların analoq sistemdən İP sisteminə keçirilməsi ilə əlaqədar fiber-optik xəttin çəkilməsi, şəbəkə avadanlıqlarının qurulması və köhnə analoq telefonlarının yeni İP telefonlarla əvəz olunması həyata keçirilib.

O, həmçinin görülən işlərdə Dayaq rabitə qovşağının rəisinin müavini leytenant Cabbar Cabbarovun və tərbiyə işləri üzrə müavin leytenant Murad Mirzəyevin rolunu xüsusilə qeyd edərək hər birinin şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi istiqamətində çalışdıqlarını nəzərimizə çatdırdı: "Dayaq rabitə qovşağının şəxsi heyəti ölkədə beynəlxalq tədbirlərin keçirilməsində iştirak edərək bu sahədə də öz töhfəsini verib. Yeni xidmətə başlayan hərbi qulluqçulara tövsiyəm odur ki, rabitənin orduda əhəmiyyətini dərindən başa düşüb, peşəkarlıqlarını daim artırsınlar, vəzifə borclarını məsuliyyət hissi ilə yerinə yetirsinlər. Biz zabitlər də öz növbəmizdə, çalışmalıyıq ki, təcrübədə qazandığımız bilik və bacarıqlarımızı şəxsi heyətə çatdıraq. Uzun illər bizim rabitəçilərin ən böyük arzusu düşmən tapdağında olan torpaqlarımızın azad edilməsində bilik və bacarıqlarını nümayiş etdirmək olub. Bu arzumuz ölkə rəhbəri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu döyüş əməliyyatları sayəsində reallaşdı. Qələbə xəbərini Azərbaycan xalqına çatdıran hər bir rabitəçi öz müqəddəs missiyasını yerinə yetirib və bundan sonra da yerinə yetirməkdə davam edəcək".

Nümunəvi xidmətilə seçilən, verilən tapşırıqların icrasını yüksək səviyyədə təmin edən hərbi qulluqçulardan baş gizir Kamran Əlizadə, gizir Əlibaba İsgəndərov, baş çavuşlar Rauf Qədirov, Daşqın İslamlı, Anar Qənbərovun adlarını çəkən qovşaq rəisi onların hər birinə gələcək xidmətlərində uğurlar arzulayıb.

**kapitan Nigar Ağayeva**

# XÜSUSİ TƏYİNATLILARIN HAZIRLIĞI YOXLANILIB

Noyabr ayının 18-dən 21-dək 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin döyüş hazırlığı və döyüş təliminin vəziyyəti yoxlanılıb. Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsinin qərargahının əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsinin artilleriya üzrə baş zabiti polkovnik-leytenant Əli Həsənov bildirdi ki, yoxlama müddətində komandir heyətinin idarəetmə və liderlik qabiliyyəti, şəxsi heyətin atəş, fiziki və xüsusi taktiki hazırlığının səviyyəsi dərindən öyrənilib, fövqəladə hallar zamanı fəaliyyət planına uyğun olaraq, xüsusi təyinatlı bölməyə həvalə olunan tapşırıqların yerinə yetirilməsi üzrə qrup, yarımqrup komandirlərinin, eləcə də şəxsi heyətin bilik və bacarığına diqqət yetirilib.



Həmçinin xüsusi təyinatlı bölmədə idarəetmənin vəziyyəti, döyüş təliminin planlaşdırılması və müvafiq tədris proqramının icrası, şəxsi heyətin xüsusi təlim atış çalışmaları üzrə praktiki atəş qabiliyyəti, fiziki hazırlığı, alpinist hazırlığı, hərbi topoqrafiya, xüsusi-taktiki hazırlıq üzrə bilik və bacarığı qiymətləndirilib.

Dəstənin komandir heyəti ilə "Xüsusi əməliyyatın təşkili və keçirilməsində komandirin işi", "Bölmə ilə atıcılıq məşqləri, döyüş atışlarının təşkili və keçirilməsi metodikası", "Döyüş meydanında irəliləmə, qəflətən atışın açılması zamanı atıcının və heyətin fəaliyyəti", "Kompleks və xüsusi məşqlərin yerinə yetirilməsi" mövzularında məşğələlər təşkil olunub.

Polkovnik-leytenant Ə.Həsənov onu da vurğuladı ki, yoxlama zamanı təlim məqsədilə xüsusi təyinatlı bölmənin müvafiq həyəcan siqnalı ilə hazırlığı, çevikliyi, silahlanması, təchizatı, avtomobil və zirehli texnikaların hərəkət qabiliyyəti, əməliyyat yerinə marşın icrası, komandir heyətinin qərar qəbuletmə bacarığı yoxlanılıb. Müəyyən olunub ki, bölmə qarşıda duran tapşırıqların icrasına hazırdır, intizam və daxili qayda qorunub saxlanılır.

Baş zabit son olaraq qeyd etdi ki, dəstənin zabit, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə "Dövlətə və dövlətçiliyə sadiqlik, vəzifə borclarının yerinə yetirilməsində məsuliyyət", "Hərbi qulluqçuların davranışları haqqında" söhbətlər aparılıb, komandir heyəti ilə yoxlamanın yekunlarına dair xidməti müşavirə keçirilib, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün konkret tapşırıqlar və tövsiyələr verilib.

**kapitan Xədicə Hacızadə**

# "DÖYÜŞ HAZIRLIĞININ ARTIRILMASI VƏ HƏRBİ İNTİZAMIN MÖHKƏMLƏNDİRİLMƏSİ BAŞLICA VƏZİFƏMİZDİR"

12565 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri əməliyyat taborunun əməliyyat bölüyüdür. Bölük öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşaraq, onları peşəkarlıqla yerinə yetirir. Şəxsi heyətin qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.





Əməliyyat taborunun komandiri mayor Arzuman Tağıyev əldə olunmuş nailiyyətlərdə bölük komandiri kapitan Azər Abdullayevin əməyinin danılmaz olduğunu vurğuladı. O, keçirilən təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin bir məqsədə - döyüş hazırlığının hər zaman yüksək səviyyədə qorunub saxlanılmasına xidmət etdiyini bildirdi: "Bölüyün qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Komandanlığın bu diqqət və qayğısı ruhlandırıcı amildir. Buna cavab olaraq bölüyün döyüş hazırlığının artırılması, hərbi intizamın möhkəmləndirilməsi, eləcə də qarşıya qoyulan tapşırıqların düzgün və vaxtında icra edilməsi başlıca vəzifəmizdir".

Bölükdə keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan tabor komandiri şəxsi heyətlə yüksək intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını söylədi. O, bu işdə bölüyün komandir heyətinin və fəalların əməyini xüsusilə qeyd etdi.

Bölüyün ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən hərbi qulluqçulardan çavuşlar Fərid İbrahimov, Rüfət Rəhimzadə, kiçik çavuş Nihad İmanov, əsgərlər Vüsal Abbasəliyev, Sənan Əliyev və Tural Əliyevin adlarını çəkərək, onların funksional vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini vurğuladı. Mayor A.Tağıyev hərbi xidmətdə hər zaman əzmkarlıq və nümunə göstərməyi bacaran əməliyyat bölüyünün bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**mayor Anar Əhmədov**

# İSTEHKAMÇI YARIMQRUPU TƏYİNATI ÜZRƏ TAPŞIRIQLARIN İCRASINA HAZIRDIR

12318 saylı hərbi hissənin hərbi qulluqçuları qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində ayıq-sayıqlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.



Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən istehkamçı yarımqrupunun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

İstehkamçı yarımqrupunun istehkamçı-radiotelefonçusu çavuş Mirdavut Ağamalızadə bildirdi ki, qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlər keçirilir. Şəxsi heyət həmçinin ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə təhlükəsizliyi təmin edir.

Çavuş M.Ağamalızadə əlavə etdi ki, istehkamçıların peşə vərdişlərinin təkmilləşdirilməsi hər zaman diqqətdə saxlanılır. Bunun üçün hərbi qulluqçular mütəmadi olaraq müxtəlif kurslara cəlb olunurlar. Yarımqrupun şəxsi heyəti Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin təşkil etdiyi kurslarda müvəffəqiyyətlə iştirak edib və onlara sertifikatlar təqdim olunub.

Yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuş Vüsal İbadlı, baş çavuş Sənan İskəndərov və çavuş Qasım Qasımov vəzifələrinin icrasında hər zaman fərqlənirlər. Xidmətlərini uğurla davam etdirən hərbi qulluqçularımız bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazırdırlar.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 15.12.2025 9:47 Page 1



# 33 YAŞI TAMAM OLAN VƏ MƏRAMINA SADİQ QALAN QƏZET

Daxili Qoşunların "Əsgər" qəzeti artıq 33 ildir ki, çap olunur. 1992-ci il dekabrın 16-da ilk sayı işıq üzü görən qəzet ötən dövrdə Daxili Qoşunların tarixi salnaməsini yazıb, hərbi mətbuatımızda layiqli yerini tutub.

"Əsgər" dövlət ideologiyasının həyata keçirilməsinə, mətbuat ənənələrimizin inkişafına, ölkəmizdə ordu quruculuğuna və Daxili Qoşunların formalaşmasına töhfələr verən qəzet kimi öz missiyasına daim sadiq qalıb.

Birinci Qarabağ müharibəsi, 44 günlük Vətən müharibəsi, lokal xarakterli antiterror tədbirləri, hərbi qulluqçularımızın Vətənin müdafiəsi, respublikamızın suverenliyi və ərazi bütövlüyünün bərpa olunması, erməni işğalçıları üzərində möhtəşəm hərbi zəfərin qazanılmasında göstərdikləri qəhrəmanlıq nümunələri qəzetdə dolğun işıqlandırılıb. Şəhidlərimiz, qazilərimiz və veteranlarımız haqqında ən çox məqalə dərc olunan qəzetlərdən biri kimi "Əsgər" tarixçilər, tədqiqatçılar, habelə jurnalistlər üçün əvəzsiz informasiya mənbəyinə çevrilib.

Qəzetin səhifələrində Daxili Qoşunların şəxsi heyətinin dövlətçiliyimizin qorunması, ölkədaxili sabitliyin təmin olunması, ictimai qaydanın və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətlərində fədakar və peşəkar xidməti əhatəli şəkildə öz əksini tapıb. Bununla yanaşı, ötən müddətdə qəzet hərbi qulluqçularımızla aparılan vətənpərvərlik tərbiyəsi işində, onların maarifləndirilməsində, qabaqcıl xidmət təcrübəsinin, əldə edilən nailiyyətlərin təbliğ olunmasında vacib rol oynayıb.

Daxili Qoşunların həyatı barədə müxtəlif məzmunlu məqalələrin, rəngarəng fotoların dərc olunduğu və arxivləşdiyi qəzet özünəməxsus üslubu, eləcə də tərtibatı ilə fərqlənir. Redaksiyadakı müxbirlərlə yanaşı, ştatdankənar müxbir postları da informasiyanın toplanılması, həmçinin materialların hazırlanması prosesinə cəlb olunurlar. Əvvəlki illərdə fəaliyyət göstərmiş, o cümlədən hazırda xidmət edən redaksiya heyətini birləşdirən vahid cə-




hətlər vətənpərvərlik və peşəyə bağlılıqdır.

Qeyd edim ki, "Əsgər"in mərhum redaktorları Elxan Mirzəyev və Təranə Məmmədovanın adları redaksiya, habelə qəzetin sadiq oxucuları tərəfindən həmişə ehtiramla anılır. Onlar hərbi jurnalistikamızın tarixində silinməz iz qoymuşlar. Yaradıcı irsləri öz dəyərini bundan sonra da qoruyub saxlayacaq, qəzetin inkişafı yolunda gördükləri işlər heç vaxt unudulmayacaqdır. T.Məmmədova "Əməkdar jurnalist" adına layiq görülmüş ölkəmizin ilk qadın hərbi jurnalisti və hərbi qəzet redaktoru olub.

Respublikamızın ilk hərbi jurnalistləri olan Vahid Məhərrəmov, İlham Babayev və Mərdan Hüseynlinin imzaları məhz "Əsgər"in səhifələrində tanınmağa başlayıb. Onlar sonradan digər qəzetlərdə fəaliyyətlərini davam etdiriblər, bu gün də mətbuat sahəsində layiqincə çalışırlar.

Ötən 33 ildə "Əsgər" qəzeti redaksiyasının iştirakı ilə Daxili Qoşunların şəhid hərbi qulluqçularına həsr olunan "Oğullar verir ki, can, yaşasın Azərbaycan", Türkiyə Jandarm Təşkilatı ilə əməkdaşlıqdan bəhs edən "Nə xoşbəxtdir türkəm deyən", xidməti-döyüş fəaliyyətinin müxtəlif mərhələlərinin əks olunduğu "Daxili Qoşunlar" kitabları ərsəyə gətirilib.

Bu gün qloballaşma prosesinin geniş vüsət aldığı, informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi, sosial şəbəkə istifadəçilərinin saylarının xeyli dərəcədə artdığı bir dönəmdə yaşayırıq. Ənənəvi qəzetçilik, çap mətbuatı belə şəraitdə dövlətimizin dəstəyi olmadan dayanıqlılığını saxlaya bilməz. Dövlətimiz çap mətbuatına, o cümlədən hərbi qəzetlərə lazımi qayğı göstərir, bu sahənin maddi-texniki təminatı istiqamətində davamlı tədbirlər görür. "Əsgər" qəzeti də bu baxımdan istisna deyil. Daxili Qoşunların mətbuat orqanı olaraq qəzet heç bir maddi sıxıntı keçirmədən, zəruri texniki vasitələrlə təchiz edilərək ayda iki dəfə Daxili İşlər Nazirliyinin mətbəəsində çap olunur. Bundan əlavə, qəzetin elektron variantı internet üzərindən oxucuları üçün əlçatandır.

Xüsusi vurğulamaq lazımdır ki, qəzetin hər çapdan çıxan sayı daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun xüsusi diqqət mərkəzindədir. Belə diqqət redaksiyanın öz işinə məsuliyyətini daha da artırır, eyni zamanda, yaradıcı fəaliyyətinə stimul verir.

Mənim mətbuatda ilk qələm sınağım "Əsgər"də olub. 1993-cü ildən bu günədək onun səhifələrində məqalələrim dərc edilir. Qəzeti yaradıcılıq yolumda özümə məktəb bilərək, uzun illər ərzində gərəkli təcrübə qazanmışam. "Əsgər"in adından şəhid ailələrinə, qazilərə baş çəkmişəm, hərbçilər, veteranlar, ziyalılar, incəsənət xadimləri ilə görüşmüşəm, ölkəmizin paytaxtı və bölgələrində müxtəlif tədbirlərə qatılmışam. Bütün bu xatirələr və təəssüratlar qələm adamı üçün unudulmazdır.

"Əsgər" fədakar və ləyaqətli yol keçərək öz adını doğruldub. Qəzet hərb yaddaşının daşıyıcısı kimi oxucularına döyüş ruhu, mübarizlik əzmi və vətənpərvərlik əqidəsi aşılayır.

**Yalçın Abbasov**

# "KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ"NƏ HƏSR OLUNMUŞ MƏQALƏ MÜSABİQƏSİ KEÇİRİLİB

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunda 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması çərçivəsində "Konstitusiya və suverenlik: ordu quruculuğunda hüquqi prinsiplər" mövzusunda məqalə müsabiqəsi keçirilib. Müsabiqənin əsas məqsədi hərbi qulluqçuların Konstitusiya, suverenlik və ordu quruculuğunda hüquqi prinsiplər barədə biliklərinin artırılması, eləcə də kursantların natiqlik bacarıqlarının inkişaf etdirilməsi olub.



Tədbir Ümummilli Lider Heydər Əliyevin, eləcə də respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş, xidməti-döyüş tapşırıqlarını yerinə yetirərkən həlak olmuş şəhidlərin xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, "Konstitusiya və Suverenlik İli"nə həsr edilən videoçarx nümayiş olunub.

Açılışda çıxış edən aparıcı qeyd edib ki, 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması Azərbaycan dövlətçiliyinin hüquqi əsaslarının möhkəmləndirilməsi, hüquqi dövlət və vətəndaş məsuliyyəti anlayışlarının daha geniş təbliği baxımından mühüm addımdır. Bildirilib ki, Konstitusiya hər bir vətəndaş üçün başlıca və dövlətçiliyimizin söykəndiyi əsas hüquqi sənəddir, suverenlik isə dövlətin müstəqil siyasət yürütmək, sərhədlərini və xalqının iradəsini qorumaq gücünün təcəssümüdür.

Müsabiqə çərçivəsində Hərbi İnstitutun kursantları "Konstitusiya və suverenlik" mövzusunu müxtəlif aspektlərdən işıqlandıran çıxışlar ediblər. Çıxışlarda Konstitusiyanın Azərbaycan Silahlı Qüvvələrinin hüquqi dayağı kimi rolu, müstəqillik və suverenliyin tarixi inkişaf xətti, gənclərin hüquqi məsuliyyətinin sosial-psixoloji tərəfləri, eləcə də müstəqilliyimizin qanla yazılan tarixi və dövlətçiliyimizin konstitusion əsasları xüsusi vurğulanıb.

Müsabiqə hərbi-elmi şöbənin rəisi polkovnik Vüqar Şirinov, tədris şöbəsinin hüquq və sosial-iqtisad fənləri kafedrası rəisinin müavini - baş müəllim polkovnik-leytenant Rəşad Mənsimov, həmin kafedranın müəllimləri Gülnar İsmayılova, Sevda Zamanova, Venera Mürşüdovadan ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib. Qiymətləndirmə zamanı mövzuya uyğunluq, məzmunun dərinliyi, natiqlik bacarığı, dil, üslub xüsusiyyətləri, faktlara və hüquqi mənbələrə istinad, eləcə də səhnə mədəniyyəti kimi meyarlara əsaslanılıb.

Tədbir çərçivəsində kursantların bədii çıxışları da təqdim olunub. Kursant Elşad Məmmədovun müəllifi olduğu "Nədir Vətən?" şeiri və Ayxan Babazadənin "Azərbaycan - dünyam mənim" adlı bədii kompozisiyası xüsusi maraq doğurub, iştirakçıların ruh yüksəkliyini daha da artırıb.

Sonda münsiflər heyəti tərəfindən nəticələr elan olunub, "Ən yaxşı çıxış" müsabiqəsinin qalibi Hərbi İnstitutun 3-cü kurs kursantı Rəvan Əsgərzadə olub. İkinci yerə 2-ci kurs kursantı Polad Əmənov, üçüncü yerə isə 3-cü kurs kursantı Abbas Ceyranov layiq görülüblər. Birinci yerə layiq görülən qalibə fərman, ikinci və üçüncü yerləri tutan kursantlara isə müvafiq dərəcəli sertifikatlar təqdim olunub.

**Hərbi İnstitutun hərbi-elmi şöbəsi**

# DÖYÜŞ MEYDANINDA ŞƏHİD ƏMİMİN QİSASINI ALDIM

Sizinlə Azərbaycanımızın gözəl, bərəkətli rayonlarından biri olan Cəlilabadın Xanəgah kəndində sadə, halal zəhməti ilə dolanmış, öz güzəranında firavan yaşamış bir ailənin həyat hekayəsini paylaşmaq istəyirəm. Kiçik bir ev, isti ocaq, süfrəsi ruzili ailə ata, ana və yeddi uşaqdan ibarət idi. 1957-ci ildən əvvəlcə Bakının Lökbatan qəsəbəsində, sonra isə Xırdalan şəhərində məskunlaşıblar.

Ailə başçısı Bəybala Binyətov, ömürgün yoldaşı isə Şamayıl Binyətova adlı nurüzlü bir xanım idi. Övladların ayrı-ayrılıqda adlarını sadalamayacağam. Əsas qəhrəmanımızı tanısaq, kifayət edər - şəhid Binyətov İlyas Bəybala oğlu. Bəli, şəhidlik zirvəsinə yüksəlmiş, adını yaşatdığım əmimdən və Vətən müharibəsi iştirakçısı kimi öz döyüş yolumdan bəhs edəcəyəm.

İlyas Binyətov 12 fevral 1971-ci ildə dünyaya gəlib. Qismətə bax ki, o, anası ilə eyni gündə və ayda doğulub. İlyas Abşeron rayonunun Xırdalan şəhərindəki 2 və 3 saylı tam orta məktəblərdə, habelə 8 saylı texniki peşə məktəbində təhsil alıb. Sonra Təmir-tikinti trestində işləyib. 1989-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Rusiya Federasiyasının o vaxtkı Kuybışev (indiki Samara) şəhərində SSRİ DİN-in Daxili Qoşunlarının tərkibində nümunəvi hərbi xidmət keçib. 1991-ci ilin iyun ayında hərbi xidmətdən tərxis olunaraq, doğulub boya-başa çatdığı Vətəninə qayıdıb.

Həmin dövrdə ölkəmizin üzərini qara buludlar bürümüşdü. Xalqımız Ermənistanın torpaqlarımıza qarşı hərbi təcavüzü ilə üz-üzə qalmışdı.

Əmim döyüşlərə qatılmaq üçün dəfələrlə könüllü olaraq hərbi komissarlığa müraciət edib. Nəhayət, 1992-ci ilin sentyabr ayının 20-də babam Bəybala kişi onu müqəddəs kitabımız olan "Qurani-Kərim"in altından keçirərək, Allahın himayəsinə sığınmağı söyləyib və oğluna son dəfə xeyir-dua verib. Ardınca o, Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinə yola salınıb.

İlyas şəxsi hərbi təcrübəsinə və bacarığına güvənərək komandirlərin əmr və tapşırıqlarını böyük peşəkarlıqla yerinə yetirib. Həmişə əsgər yoldaşlarına öz köməyini əsirgəməyib.

1992-ci ilin sentyabr-noyabr aylarında Ağdərə rayonunun Dovşanlı, Heyvalı və Yayıcı kəndlərində qaniçən düşmənə qarşı qətiyyətlə vuruşub. Çıldıran kəndinin alınmasında cəsurluğu ilə fərqlənib. Əlbəttə,



ailəsi də daim İlyasa və ordumuzun bütün vuruşan oğullarına namaz üstə Tanrıya əl açaraq dualar edib.

Sanki Ana Vətən İlyası öz qoynuna, əbədi cənnət qoxan beşiyinə çağırırmış. Noyabrın 19-u İlyas Sırxavənd döyüşündə düşmənin üzərinə qorxmadan şığıyıb, amma qaniçən, vəhşi yağı onu ürəyindən nişan alıb. Əmim Sırxavənd kəndi uğrunda gedən döyüşdə ilk şəhidimiz olub.

Üçrəngli bayrağımıza bükülmüş cənazəsi gətiriləndən və xəbəri bildiriləndən bir gün əvvəl Şamayıl nənəm məhəlləyə gələrkən, binanın qabağında gözünə mafa görünüb. Bəybala babam isə həmin gecə heç kimə danışmadığı, amma ona əyan olan bir yuxu görüb. Hər iki valideyninə oğullarının şəhadətə ucalması barədə Tanrı tərəfindən ilk xəbər əyan olub.

İ.Binyətov 1992-ci il noyabrın 20-də Bakı şəhərindəki Şəhidlər xiyabanında hərbi ehtiramla, yaylım atəşi açılaraq torpağa tapşırılıb.

Əmim şəhidlik zirvəsinə ucalandan sonra Şamayıl nənəm ömrünün sonuna qədər bir daha başına xına qoymadı, heç bir toyda, hətta övlad toyu olsa belə, əlini qaldırıb oynamadı. Bir əhdi vardı: "Oğlumun adını yaşadan nəvəm İlyazın toyunda başıma xına qoyub, əl qaldırıb oynayacağam" - deyərdi. Lakin toyumu görmək nənəmə qismət olmadı.

Mən, İlyaz Binyətov əmimin şəhid olmasından iki il sonra, 1994-cü il aprelin 16-da anadan olmuşam. 2001-ci ildə Abşeron rayonunun Ceyranbatan qəsəbəsindəki 1 saylı tam orta məktəbdə 1-ci sinfə başladım. 2-ci sinifdən 11-ci sinfə qədər isə Xırdalan şəhərindəki 2 saylı tam orta məktəbdə təhsilimi davam etdirdim. 2012-ci ildən 2016-cı ilədək Azərbaycan Dövlət İqtisad Universitetində statistika ixtisası üzrə ali təhsil almışam.

2016-cı ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırıldım. Hərbi xidmətimi Müdafiə Nazirliyinin Ağcabədi, Beyləqan və Ağdam rayonlarında yerləşən "N" saylı hərbi hissələrində keçdim. Manqa komandiri vəzifəsində xidmətimi layiqincə yerinə yetirmişəm. Komandirim, o vaxt "baş leytenant" hərbi rütbəsində olan Həmidağa Dadaşovun sayəsində artilleriya sahəsini bacardığım qədər mükəmməl öyrənməyə çalışırdım. 2017-ci ildə ordu sıralarından tərxis olundum.

2020-ci ilin sentyabr ayının əvvəllərində komandirimlə Xırdalanda görüşdüm. Artıq o, "kapitan" hərbi rütbəsini almışdı. Söhbət əsnasında mənə bildirdi: "Hazırlıqlı ol, torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlər başlayarsa, sən də hərbidə artilleriya ixtisasına yiyələndiyin üçün orduya mütləq gərək olacaqsan".

Təxminən 10 gün sonra - sentyabr ayının 28-dən 29-a keçən gecə, hardasa saat 2-3 radələrində müharibə janrında olan "Ayla" adlı filmə baxırdım. Həmin gecəni yaxşı xatırlayıram. Kinonun sonunda gözlərimdən yaş süzüldü və sonra yuxuya getdim. Sentyabrın 29-da səhər saat 7 radələrində tanımadığım bir nömrədən gələn zənglə yuxudan ayıldım. İlk sual isə bu cümlə ilə başladı: "Salam, İlyaz Binyətovdur?". O an artıq hər şeyin fərqinə varmışdım. Vətən torpaqları 28 il əvvəl ön cəbhəyə gedən əmim kimi, indi də məni gözləyirdi…

Atam 28 il əvvəl babam Bəybala kişinin etdiyi kimi, səbrli, soyuqqanlı və təmkinli şəkildə məni müqəddəs kitabımız olan "Qurani-Kərim"in altından keçirib, Allahın himayəsinə tapşıraraq, bağrına basdı və dedi: "Sən şəhid əmin İlyasın qisasını alıb, torpaqlarımızı geri qaytaracaqsan".

2020-ci il sentyabrın 29-da döyüşlərə qatıldım. Əvvəlcə Mingəçevirdəki "N" saylı hərbi hissəyə yola düşdüm. Həmin hərbi hissədə komandirim kapitan H.Dadaşovla görüşməyim məndə xoş bir əhval-ruhiyyə yaratdı. O da mənimlə eyni istiqamətdə döyüşlərə qatılacaqdı. Bu xoş təsadüf hər ikimizin üzündə təbəssüm yaratdı, eyni zamanda bir-birimizə bir daha bu taleyüklü haqq savaşında daha da əzmli, güclü, iradəli olmaq üçün doğmalıq hissini ötürdü.




Kapitan H.Dadaşov "N" saylı hərbi hissənin minaatan batareyasının komandiri idi, mən isə həmin batareyanın 6-cı manqasının komandiri. Bu, Allahın mənə bəxş etdiyi, heç vaxt unutmayacağım qismət idi.

Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə layiqincə iştirak etdim. Noyabrın 5-də Zəngilanda düşmənin üzərinə xeyli sayda mərmi yağdırdım, o anlar heç vaxt yadımdan çıxmaz.

Əmimin ruhu hər zaman mənimləydi, məni mənfur düşmənin mərmisindən və gülləsindən qoruyurdu. Müharibədə hamımız eyni məqsəd üçün vuruşurdıq: işğal olunmuş torpaqlarımızı geri qaytarmaq və şəhidlərimizin qisasını almaq. Biz buna nail olduq. Haqq savaşımızı qələbə ilə sona çatdırdıq.

Mən ön cəbhəyə getdiyim ilk gün şəhid qanı ilə yoğrulmuş bir ovuc torpağı əmimin məzarına qatacağımı əhd etmişdim. Müharibədən dönəndən sonra Şəhidlər xiyabanında əmimin qəbrini ziyarət edərək, şəklini öpdüm, ona qələbə xəbərini çatdırdım. Hiss edirdim ki, əmimin ruhu bu görüşü gözləyirmiş. Daha sonra cibimdəki şəhid qanı ilə qarışan bir ovuc torpaq payımı çıxardıb, əmimin sinə daşının ətrafında olan güllərlə örtülmüş torpaq sahəsinə qarışdırdım. Həmin an çox kövrəlmişdim, gözlərimdən bir neçə damla yaş axaraq həmin torpağa töküldü. Bu, əlbəttə ki, sevinc göz yaşları idi. Çünki hər insana adını yaşatdığı şəxsin qisasını alıb, onun ruhunu şad etmək nəsib olmur.

Müharibədən sonra ilk ziyarət etdiyim ocaq babamın evi oldu. Babam 2014-cü ildə dünyasını dəyişib. 2021-ci ilin yanvar ayında şəhid anası, Şamayıl nənəmlə görüşməyə yollandım. İçimdə böyük bir qürur hissi vardı, həyəcanlı idim, çünki şəhid anasını sevindirəcəkdim, axı onun oğlunun qisasını almışdım. Nənəmin qabarmış əllərini öpüb, uca dağların qarla örtülmüş zirvələrini xatırladan ağ saçlarını oxşadım. Onun gözlərindən yaşlar süzülürdü. Məni qucaqlayaraq təşəkkürünü bildirdi, şəhid oğlu İlyasın qisasını alıb, adını daim uca tutduğum üçün dualar etdi. O, 2024-cü ildə dünyasını dəyişib. Əminəm ki, şəhid oğlu ilə birlikdə cənnətdə əbədi qovuşublar.

Bu müqəddəs savaşdan danışmağa xeyli xatirəm var. "Cəbrayılın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişəm. Həmçinin Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə vəzifə borcumu layiqincə yerinə yetirdiyimə görə fəxri fərmanla mükafatlandırılmışam.

Müharibədən sonrakı hər il əmimin və digər şəhidlərimizin məzarlarını ziyarət edərkən, onların ruhlarının rahatlıq tapdıqlarını qəlbimin dərinliyində hiss edirəm.

Şəhidlik ən ali zirvədir. Uşaqlıqdan bizə öyrədiblər ki, şəhidlər bu dünyaya bizlərə xoş, firavan və əmin-amanlıqla dolu həyat bəxş etmək üçün Tanrı tərəfindən göndərilmiş mələklərdir.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**İlyaz Binyətov**
**Vətən müharibəsi iştirakçısı**

4_Layout 1 15.12.2025 9:49 Page 1



# ZAQATALADA YERLƏŞƏN HEYDƏR ƏLİYEV MƏRKƏZİNƏ EKSKURSİYA TƏŞKİL OLUNUB

Şəxsi heyətin mənəvi tərbiyəsi, maarifləndirilməsi, dünyagörüşünün, mədəni-estetik səviyyəsinin və dövlətçilik təfəkkürünün düzgün formalaşdırılması, ictimai-siyasi biliklərinin artırılması baxımından tarixi məkanlara, mədəniyyət abidələrinə, muzey və sərgi mərkəzlərinə ekskursiyaları mühüm əhəmiyyət kəsb edir. Digər hərbi hissələrimizdə olduğu kimi, 17074 saylı hərbi hissədə də belə tədbirlər davamlı olaraq təşkil edilir. Hərbi hissənin komandanlığı hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkilini hər zaman nəzarətdə saxlayır.

Hərbi hissənin komendant bölüyünün komandiri baş leytenant Elnur Quliyevin rəhbərliyi ilə bölüyün xidmətdə fərqlənən nümunəvi, intizamlı hərbi qulluqçularının Zaqatalada yerləşən Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub.




Hərbi qulluqçulara Heydər Əliyev Mərkəzinin bələdçisi mərkəz haqqında ətraflı məlumat verib. Bildirilib ki, mərkəz binasının tikintisinə 2013-cü ildə başlanılıb və 2015-ci ilin noyabr ayının 4-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilib. Ümumi sahəsi 2765 kvadratmetr olan mərkəzin girişində Ulu Öndər Heydər Əliyevin büstü qoyulub.

Birinci mərtəbədə Ümummilli Liderin həyat və fəaliyyətini, siyasi irsini, eləcə də dövlətçilik fəlsəfəsini və azərbaycançılıq məfkurəsini əks etdirən fotolardan ibarət zəngin ekspozisiya yaradılıb. Ekspozisiyada dünya şöhrətli siyasi xadim haqqında kitablar, fəxri diplomlar və digər sənədlər nümayiş etdirilir. Həmçinin onun sovet hakimiyyəti illərində və ölkəmizin müstəqilliyi dövründə Zaqatala rayonuna səfərlərini, rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən maraqlı fotolar toplanılıb.

Bununla yanaşı, Ümummilli Liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Azərbaycan Respublikasının Prezidenti kimi 1993-2003-cü illərdə həyata keçirdiyi böyük işlər, Azərbaycanın rifahı, xoşbəxt gələcəyi naminə apardığı düşünülmüş siyasət, ölkəmizin hərtərəfli sosial-iqtisadi tərəqqisinə yol açan layihələr, ordu quruculuğu, xarici əlaqələr, mədəniyyət, digər sahələrin inkişafına dair maraqlı fotolar, sənədlər, o dövrə aid kitablar, qəzetlər və başqa materiallar saxlanılır.

Əlavə olaraq, mərkəzdə 350 yerlik konfrans zalı, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı otağı, kinozal, kulinariya və rəsm otaqları, heykəltəraşlıq studiyası, poliqrafiya emalatxanası fəaliyyət göstərir.

Mərkəzin ikinci mərtəbəsində isə elektron kitabxana, arxiv, virtual sinif və komputer otaqları, dizayn və xalq sənətkarlığı studiyaları, xarici dil dərnəyi və 44 nəfərlik dairəvi konfrans zalı var. Mərkəz gənclərin ilkin peşə vərdişlərinə yiyələnmələrində və asudə vaxtlarını səmərəli keçirmələrində mühüm rol oynayır.

Binanın ətrafında isə geniş abadlıq işləri aparılıb və yaşıllıq salınıb.

Hərbi qulluqçular mərkəzdən xoş təəssüratlarla ayrılıblar.

**kapitan Xədicə Hacızadə**

# AVTOMOBİLLƏRİN VƏ ZİREHLİ TEXNİKALARIN SAZ VƏZİYYƏTDƏ OLMASI DİQQƏT MƏRKƏZİNDƏDİR



12565 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin sürücüləri üzərilərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirirlər. Xüsusi təyinatlı dəstə komandirinin maddi-texniki təminat üzrə müavini mayor Ruslan Əkbərov nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün görülən işlərdən danışdı. Bildirdi ki, hər gün sürücü heyəti avtomobillərin və zirehli texnikaların saxlanıldığı parka gəlir. Onlar təhlükəsizlik qaydaları ilə tanışlıqdan sonra verilmiş tapşırıqlara əsasən fəaliyyətə başlayırlar.

Avtomobil xətdə çıxmazdan öncə parkda yerləşən nəzarət-texniki məntəqəsində maşın rəh-



bərinin, sürücünün sənədlərinin mövcudluğu, eləcə də nəqliyyat vasitələrinin texniki vəziyyəti yoxlanılır, park növbətçisi tərəfindən xətdə çıxılması üçün icazə verilir. Parka qayıtdıqdan sonra təyin olunmuş yerdə avtomobil saxlanılır, maşın rəhbəri tərəfindən nəzarət-texniki məntəqəsi rəisinə təqdim edilir. O, avtomobilin sazlığını yoxlayır, sürücü tərəfindən nəqliyyat vasitəsinə texniki qulluq göstərilir, yuyulur və yanacaq doldurulduqdan sonra parkdakı saxlancda saxlanılır.

Görülən gündəlik işlərdən başqa, nəqliyyat vasitələrinə yay və qış mövsümlərində texniki xid-



mətlər göstərilir. Bu zaman avtomobillərdə təmir işləri aparılır, xarici görünüşləri qaydaya salınır. Şəxsi heyətin daşınması üçün ayrılan nəqliyyat vasitələrinin istismarı və texniki vəziyyəti gündəlik dəqiqləşdirilir, zərurət yarandıqda təmiri və texniki qulluğun göstərilməsi təmin edilir.

Dəstə komandirinin müavini nəqliyyat vasitələri təhkim olunmuş hərbi qulluqçuların nəzəri biliklərinin artırılması məqsədilə mütəmadi olaraq məşğələlərin keçirildiyini söylədi. Məşğələlərdə gündəlik texniki qulluğun keçirilməsi, avtomobillərin və zirehli texnikaların hissə və mexanizmlərinin iş prinsipləri, düzgün istismarı, idarə olunması, şəxsi heyətin və xüsusi yüklərin daşınması zamanı sürücünün vəzifələri, təhlükəsizlik qaydalarına ciddi əməl edilməsi tədris olunur. Mayor R.Əkbərov bildirdi ki, yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə hər ay yerli yol polisi əməkdaşları şəxsi heyətlə məşğələlər keçirir, onları maraqlandıran sualları cavablandırırlar.

Mayor R.Əkbərov vəzifə borclarının icrasına vicdanla yanaşan, hər zaman öz bilik və bacarıqlarını təkmilləşdirən nümunəvi hərbi qulluqçulardan çavuş Mərhəmət Gözəlov, baş əsgər Ural Vəliyev, əsgərlər Arzuman Mehdiyev və Elsun Talıbovun adlarını qeyd etdi.

**mayor Anar Əhmədov**

# AĞ ÖLÜMƏ - NARKOMANİYAYA YOX DEYİRİK!

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri narkomaniyadır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.



Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da məqsədyönlü işlər aparılır.

Bu baxımdan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, hərbi hissələrin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bəşəriyyətin dəhşətli bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### ABŞ Ordusu yeni AH-64E helikopterlərinin alınması ilə bağlı müqavilə imzalayıb

ABŞ Ordusu "Boeing" şirkəti ilə yeni AH-64E "Apache" ağır döyüş helikopterlərinin və "Longbow" ekipaj təlim sistemlərinin tədarükü ilə bağlı 4.6 milyard dollar dəyərində müqavilə imzalayıb. "Poliqon" ABŞ Müharibə Nazirliyinə istinadən xəbər verir ki, müqaviləyə həmçinin əlaqəli komponentlərin, ehtiyat hissələrinin və avadanlıqların alınması da daxildir.

Sözügedən müqavilə üzrə işlərin 2032-ci ilin may ayına qədər tamamlanması nəzərdə tutulub.



NÜMUNƏVİ XİDMƏT

# PEŞƏKAR VƏ VƏTƏNPƏRVƏR ZABİT

16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi təyinatlı qrupunun komandiri kapitan Rafiq Mikayılov dəstə komandiri tərəfindən müsbət xarakterizə olunur.



Zabitimizin xidməti fəaliyyəti ilə yaxından tanış oldum. Dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Ruslan Abbasov onun öz sahəsi üzrə kifayət qədər bacarıqlı zabit olduğunu və tabeliyində olan hərbi qulluqçuların peşə hazırlıqlarının yüksəldilməsi istiqamətində əzmlə çalışdığını nəzərimizə çatdırdı.

Kapitan R.Mikayılov 1997-ci il dekabrın 2-də İmişli rayonunun Xəlfəli kəndində doğulub. 2004-cü ildən 2015-ci ilədək doğma kəndində yerləşən Qabil Mərdəliyev adına tam orta məktəbdə təhsil alıb. 2015-2019-cu illərdə Daxili Qoşunların Hərbi İnstitutunda "Fiziki hazırlıq və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisasına yiyələnib. 2019-cu ildə 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində qrup komandiri vəzifəsinə təyin olunub. 2024-cü ildən isə 16077 saylı hərbi hissədə xidmətini davam etdirir. 2023-cü ilin sentyabr ayında Qarabağ bölgəsində keçirilmiş antiterror əməliyyatında iştirak edib.

Tutduğu vəzifənin məsuliyyətini dərk edən hərbi qulluqçumuz ona göstərilən etimadı doğrultmaq üçün hər zaman öz üzərində çalışır. Komandanlıq tərəfindən verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə görə dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

**kapitan Şahin Cəfərzadə**

# LAYİQLİ XİDMƏT MƏSULİYYƏT HİSSİNDƏN İRƏLİ GƏLİR

Daxili Qoşunların sıralarında hərbi xidmət keçən çavuş Səfa Kərimova vəzifələrini vicdanla yerinə yetirir. Hər zaman seçdiyi peşə ilə fəxr edən hərbi qulluqçu ötən xidmət illəri ərzində üzərinə düşən məsuliyyəti dərk edərək peşə hazırlığını artırmaq məqsədilə əzmlə çalışıb.



O, 1989-cu ilin avqust ayının 18-də Yevlax rayonunun Yuxarı Qarxun kəndində doğulub. Yuxarı Qarxun kənd tam orta məktəbinin məzunudur. 1998-2006-cı illərdə musiqi məktəbində pianino aləti üzrə musiqi təhsili alıb. Həyatını hərbi xidmətə bağlamağı arzulayan S.Kərimova bu istəklə 2011-ci ildə Daxili Qoşunların 16077 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub.

Hazırda hərbi hissənin maddi-texniki təminat xidmətlərinin kargüzarı (ərzaq xidməti üzrə) vəzifəsində xidmətini ləyaqətlə davam etdirir.

Fəaliyyətini daxili işlər nazirinin və daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrlərinin tələblərinə əsasən quran çavuş S.Kərimova maddi vəsaitlərin və təminatda duran şəxsi heyətin ərzağının və ərzaq əmlaklarının uçotunu aparır. Anbardan maddi vəsaitlərin buraxılması üzrə sənədlərin düzgün tərtibinə, habelə anbara daxil olmuş maddi vəsaitlərin uçot kitablarına vaxtlı-vaxtında mədaxil edilməsinə nəzarət edir. Peşəkarlıq vərdişlərini təkmilləşdirmək üçün daim öz üzərində çalışan hərbi qulluqçu Daxili Qoşunlarda xidmətilə qürur duyur. Nümunəvi xidmətinə görə dəfələrlə hərbi hissə komandiri tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

**kapitan Şahin Cəfərzadə**

# VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISI, ƏZMKAR HƏRBİ QULLUQÇU

17072 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularından biri baş çavuş Elnur Məmmədovdur. O, 1990-cı ilin mart ayının 15-də Daşkəsən rayonunun Zinzahal kəndində anadan olub. 1996-2007-ci illərdə doğulub boya-başa çatdığı kənddə yerləşən məktəbdə orta təhsil alıb. Daha sonra 2008-2010-cu illərdə Müdafiə Nazirliyinin Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonundakı "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2010-2012-ci illərdə müxtəlif mülki işlərdə çalışıb.



Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətinə isə 2012-ci ildə başlayıb. 2022-ci ilədək 12318 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin və xüsusi təyinatlı dəstəsinin yarımqrup komandiri vəzifələrində qarşısına qoyulan xidməti-döyüş tapşırıqlarını layiqincə yerinə yetirib. 2024-cü ilin oktyabr ayında 17072 saylı hərbi hissənin klub rəisi vəzifəsinə təyin olunub. Hazırda xidmətini uğurla davam etdirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.

Qeyd edək ki, hərbi qulluqçumuz eyni zamanda Vətən müharibəsi iştirakçısıdır. Belə ki, 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının və Şuşa şəhərinin işğaldan azad olunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edib. Noyabr ayının 4-də Şuşa istiqamətində yaralanıb. "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunub.

**kapitan Xədicə Hacızadə**

## Allah rəhmət eləsin

25031 saylı hərbi hissənin komandanlığı kapitan Elçin Qurbanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin komandanlığı gizir Nurqələm Məhərrəmova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000